**Doktorantura və dissertantura səviyyəsində xarici dil üzrə imtahanın strukturu**

Xarici dil üzrə qəbul və fəlsəfə doktoru imtahanı vermək istəyən **namizəd** (doktoranturaya qəbul olmaq istəyən şəxslər) və **iddiaçılar** (artıq doktoranturaya qəbul olmuş şəxslər) xarici dil imtahanında çoxpilləli təhsil sistemi çərçivəsində əvvəllər mənimsədikləri bilik və bacarıqları, söz ehtiyatını, praktik qrammatikanın əsaslarını nitq fəaliyyətinin bütün növləri üzrə kompleks şəkildə, yəni dinləyib-anlama, oxuyub-anlama, yazı və danışıq vərdişləri əhatə olunmaqla nümayiş etdirməlidirlər.

Xarici dil üzrə qəbul və fəlsəfə doktoru imtahanı qrammatik qaydalar üzrə 5 qapalı və 5 açıq test tapşırığı, danışıq üzrə ümumi dəyəri 10 bal olmaqla 3 tapşırıq, dinləyib-anlama bacarığı üzrə dialoq və monoloq tipli mətn üzrə 10 qapalı test tapşırığı, oxuyub-anlama üzrə 350-500 sözdən ibarət mətn üzrə 10 qapalı test tapşırığı və yazı bacarığı üzrə 10 balla qiymətləndirilməklə esse və ya vizual məlumatın təsviri üzrə tapşırıqdan ibarətdir. Səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

Yazı bloku üzrə tapşırıq nümunəsi imtahanın məzmunundan asılı olaraq dəyişir. Belə ki, xarici dil üzrə qəbul imtahanı üçün qeydiyyatdan keçən namizədlərdən esse (fikir bildirmə, mühakimə xarakterli və s) yazmaq tələb olunduğu halda, xarici dil üzrə fəlsəfə doktoru imtahanında iddiaçılardan vizual məlumatın (məsələn, cədvəl, diaqram, xətti, dairəvi diaqram və s) təsvirini vermək tələb olunur.

Qeyd olunmalıdır ki, yazı işləri yoxlanılarkən hər esse/vizual məlumatın təsviri iki ekspert tərəfindən yoxlanılır, qiymət fərqi üç baldan çox olduqda iş üçüncü ekspertə göndərilir. Digər hallarda iki qiymətin ədədi ortası götürülür (misal üçün, ekspertlər 3 və 4 qiyməti qoyduqda, yekun qiymət 3.5 bal çıxarılır). Eyni prosedur danışıq bloku üzrə də tətbiq olunur və iddiaçının verdiyi cavabın iki ekspert tərəfindən qiymətləndirilməsi məqsədilə iddiaçının cavabı lentə alınır/yazılır.

Danışıq bloku üzrə qiymətləndirmə şifahi formada kompüter proqramı vasitəsilə həyata keçirilir. Vətəndaşların kompüter proqramı ilə yaxından tanış olmaları üçün imtahan öncəsi link paylaşılır və imtahan verənlərin mütləq şəkildə danışıq bloku üzrə ümumi məlumat və imtahan qaydaları ilə yaxından tanış olmaları tövsiyə olunur. Qeyd edək ki, yalnız imtahan üçün qeydiyyatdan keçmiş şəxslər linkə daxil olaraq proqramın demo versiyası ilə tanış ola biləcəklər.

Danışıq bloku üzrə qiymətləndirmə üç mərhələdən ibarətdir. Birinci mərhələdə iddiaçı verilmiş şəkli öncə təsvir edir, sonra isə artan çətinlikdə olan mövzu üzrə suallara fikrini bildiririr, səbəblər gətirir və izahatlar verərək əsaslandırır. Hər sualı cavablandırmaq üçün düşünməyə ayrılan vaxt 2 dəqiqədir. Bu tapşırıqda birinci sual şəklin təsvirini (1 dəqiqə), ikinci sual daha ümumi (1 dəqiqə), üçüncü sual (1 dəqiqə) isə nisbətən xüsusi xarakter daşıyır. Ümumilikdə bu mərhələdə cavab üçün ayrılan vaxt 3 dəqiqədən çox olmamalıdır. Bu tapşırıq maksimum 3 balla qiymətləndirilir.

İkinci mərhələdə verilmiş məlumatlar əsasında (lehinə/əleyhinə) uyğun olanı seçərək fikrini əsaslandırmaq üçün təqdimetmə bacarığını nümayiş etdirir. Düşünmək üçün namizədə/iddiaçıya maksimum üç dəqiqə vaxt verilir və iki dəqiqə ərzində namizəd/iddiaçı cavabını təqdim edir. Bu tapşırıq maksimum 5 balla qiymətləndirilir.

Üçüncü mərhələdə namizədə/iddiaçıya təqdimatla əlaqədar bir sual verilir. Sonuncu mərhələyə düşünməyə ayrılan vaxt 2 dəqiqə, cavab üçün isə ayrılan vaxt 1 dəqiqədir. Bu tapşırıq maksimum 2 balla qiymətləndirilir.

**Danışıq bloku üzrə tapşırıq nümunələri:**

Birinci mərhələ üzrə (İngilis, Fransız və Alman dilləri üzrə)



*shorturl.at/ksHJK*

EN:

1. Describe the picture
2. What are benefits and challenges of a work-from-home lifestyle?
3. Do you prefer to work from home or at an office?

DE:

1. Beschreiben Sie das Bild.
2. Was sind Vorteile und Herausforderungen von zu Hause zur Arbeit Lebensstile?
3. Arbeiten Sie lieber von zu Hause oder im Büro?

FR:

1. Décrivez l'image.
2. Quels sont les avantages et les défis d'un mode de vie de travail à domicile?
3. Préférez-vous travailler à domicile ou au bureau?

İkinci və üçüncü mərhələ (ingilis dili üzrə)

**EN**: In this part of the speaking exam, you are going to give a presentation. You can see the topic and some points **for** and **agains**t both sides. You will choose two points from each list and give a balanced argument. You will have 3 minutes to prepare before you start speaking and then you will have 2 minutes to speak. After you finish speaking, you will be asked additional questions about the topic.

**Topic**

**Universities and traditional degrees are not relevant in the age of online courses.**

| FOR | AGAINST |
|---|---|
| Online courses are easily accessible and flexible.<br>Online courses give students more autonomy and control over their education.<br>They create a room for real-life learning. | Traditional education is more result-oriented.<br>Online classes require a great deal of self-discipline.<br>They often result in reduced social interaction. |

**Answer the question.**

Education standards today are lower than they were 50 years ago.

What is your response to this statement?

İkinci və üçüncü mərhələ (Alman dili üzrə)

**DE**: In diesem Teil der Sprechprüfung werden Sie eine Präsentation halten. Sie sehen das Thema und einige Punkte für und gegen beide Seiten. Sie wählen zwei Punkte aus jeder Liste und geben eine ausgewogene Argumentation. Sie haben 2 Minuten Zeit, sich vorzubereiten, bevor Sie anfangen zu sprechen, und dann haben Sie 3 Minuten Zeit, um zu sprechen. Nachdem Sie Ihre Rede beendet haben, werden Ihnen weitere Fragen zum Thema gestellt.

**das Thema**

**Universitäten und traditionelle Abschlüsse sind im Zeitalter der Online-Kurse irrelevant.**

| FÜR | DAGEGEN |
|---|---|
| Online-Kurse sind leicht zugänglich und flexibel.<br>Online-Kurse geben den Studierenden mehr Autonomie und Kontrolle über ihre Ausbildung.<br>Ils créent une salle pour l'apprentissage de la vie réelle./ Sie schaffen einen Raum für echtes Lernen. | Traditionelle Bildung ist ergebnisorientierter.<br>Online-Kurse erfordern viel Selbstdisziplin.<br>Sie führen oft zu einer verminderten sozialen Interaktion. |

**Beantworte die Frage.**

Das Bildungsniveau ist heute niedriger als vor 50 Jahren.

Was ist Ihre Antwort auf diese Aussage?

**İkinci  və üçüncü mərhələ (Fransız dili üzrə)**

FR: Dans cette partie de l'examen d'expression orale, vous allez faire une présentation. Vous pouvez voir le sujet et quelques points pour et contre les deux côtés. Vous choisirez deux points dans chaque liste et donnerez un argument équilibré. Vous aurez 2 minutes pour vous préparer avant de commencer à parler, puis vous aurez 3 minutes pour parler. Après avoir fini de parler, on vous posera des questions supplémentaires sur le sujet.

**Le sujet**

**FR:Les universités et les diplômes traditionnels ne sont pas pertinents à l'ère des cours en ligne.**

| FOR | AGAINST |
|---|---|
| Les cours en ligne sont facilement accessibles et flexibles.<br>Les cours en ligne donnent aux étudiants plus d'autonomie et de contrôle sur leur éducation.<br>Ils créent une salle pour l'apprentissage de la vie réelle. | L'éducation traditionnelle est plus axée sur les résultats.<br>Les cours en ligne demandent beaucoup d'autodiscipline.<br>Ils entraînent souvent une réduction des interactions sociales. |

**Répondre à la question.**

Les normes d'éducation sont aujourd'hui inférieures à ce qu'elles étaient il y a 50 ans.

Quelle est votre réponse à cette déclaration?